AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 12/5

Bakı şəhəri 01 noyabr 2017-ci il

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə
Dövlət Proqramı"nın AMEA üzrə icrası ilə bağlı
Tədbirlər Planı haqqında

Azərbaycan Respublikasında davamlı olaraq həyata keçirilən gənclər siyasətinin əsas strateji məqsədi cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməsinə şərait yaratmaqdır. Bu istiqamətdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 15 sentyabr 2017-ci il tarixli Sərəncamla "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət Proqramında AMEA-nın üzərinə bir sıra mühüm vəzifələr qoyulmuşdur. Həmin vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın elmi müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, Dövlət Proqramının icrası ilə bağlı Tədbirlər Planında nəzərdə tutulan işlərin həyata keçirilməsi təmin edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin**.**

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT